# Qəbələ sosial-iqtisadi inkişaf yollarında

## 2018-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin hesabat məruzəsi

**Hörmətli yığıncaq iştirakçıları, əziz qonaqlar!**

**Xanımlar və cənablar!**

Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir.

İclasdakı giriş nitqində cənab İlham Əliyev ilin əvvəlindən qarşıya qoyulan bütün vəzifələrin uğurla və vaxtında icra edildiyini diqqətə çatdırmışdır.

Cənab Prezident ölkənin həm iqtisadi, həm siyasi, həm də sosial sahələrini əhatə edən məsələlərə toxunaraq görülmüş işləri xüsusi qeyd etmiş, yeni tövsiyələrini və tapşırıqlarını vermişdir.

Ötən il regionların sosial-iqtisadi inkişafı ilə bağlı üçüncü beşillik proqramın başa çatdığını, bu il dördüncü proqramın icrasına başlanacağını, keçən il bölgələrə 24 dəfə səfər etdiyini deyən dövlətimizin başçısı ölkəmizdə ictimai-siyasi vəziyyətin sabit olduğunu, xarici siyasət sahəsində də bir sıra uğurların əldə edildiyini, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayının artdığını diqqətə çatdırmışdır.

Dünyanın müxtəlif guşələrində, o cümlədən ölkəmizin sərhədlərinə yaxın regionlarda xoşagəlməz proseslərin baş verdiyini, yeni risklərin, yeni təhdidlərin yarandığını qeyd edən cənab İlham Əliyev əvvəlki illərdə başlanmış münaqişələrin yaratdığı mənfi mənzərənin fonunda keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələrin icra olunduğunu, ölkəmizin hərtərəfli inkişafının təmin edildiyini bildirmiş, Azərbaycanın uğurlarının özünü daha qabarıq şəkildə büruzə verdiyini vurğulamışdır.

Dövlət başçımız bölgələrdə infrastruktur layihələrinin icrasının sürətlə getdiyini, yüz minlərlə yeni iş yerlərinin, yeni sənaye müəssisələri yarandığını, kənd təsərrüfatının inkişaf etdiyini bildirərək demişdir: "Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək".

Bu gün Azərbaycanın iqtisadi inkişaf baxımından heç bir beynəlxalq maliyyə qurumundan, heç bir ölkədən asılı olmadığını bildirən cənab İlham Əliyev iqtisadi müstəqilliyin Azərbaycan xalqının maraqlarını müdafiə edən müstəqil siyasətin aparılması üçün önəmli olduğunu diqqətə çatdırmış, bu baxımdan 2018-ci ilin uğurlu il olduğunu qeyd etmişdir.

"Deyə bilərəm ki, keçən il dərin iqtisadi islahatlar ili olmuşdur və bu islahatların nəticələrini indi hər kəs görür. Büdcəmizə daxilolmalar böyük dərəcədə artıb. İqtisadi islahatların əsas məqsədi bu sahədə şəffaflığı tam təmin etməkdir, xoşagəlməz hallara qarşı mübarizəni gücləndirməkdir və beləliklə, ölkəmizin uğurlu inkişafını sürətləndirməkdir"–fikirlərini söyləyən ölkə başçımız Azərbaycanda gedən prosesləri beynəlxalq təşkilatların, aparıcı maliyyə qurumlarının çox böyük maraqla izlədiklərini və bizim işimizə çox yüksək qiymət verdiklərini vurğulamışdır.

"Mən xüsusi qeyd etməliyəm ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir. İl ərzində biz 32 pillə irəliyə getmişik. Hesab edirəm ki, bu, rekord göstəricidir"–deyən cənab Prezident biznes mühiti üçün yaradılan şəraitə görə dünya miqyasında bunun böyük nailiyyət hesab edildiyini bildirmişdir.

Cənab İlham Əliyev Ermənistan istisna olmaqla qonşu ölkələrlə əlaqələrin yüksək səviyyədə olduğunu vurğulamış, Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanan Tərəfdaşlıq Prioritetləri sənədinin xüsusi əhəmiyyətə malik olduğunu, Azərbaycanın bu ildən Qoşulmama Hərəkatına sədrlik edəcəyini qeyd etmişdir.

Ölkə başçısı Xəzər dənizinin hüquqi statusu ilə bağlı imzalanan Konvensiyada Azərbaycanın mövqeyinin əksini tapdığını bildirmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışarkən dövlətimizin başçısı Azərbaycan xalqının və dövlətin heç vaxt işğalla barışmayacağını vurğulamışdır.



Prezident İlham Əliyev onu da qeyd etmişdir ki, 2018-ci ildə hərbi sahədə böyük nailiyyətlər qazanılmış, uğurlu Naxçıvan əməliyyatı nəticəsində azad olunan 11 min hektar torpağa tam nəzarət bərpa olunmuşdur.

Dövlətimizin başçısı 2018-ci ildə üçüncü peykimizin orbitə buraxıldığını, Cənub Qaz Dəhlizinin rəsmi açılışı olduğunu, TANAP layihəsinin işə düşdüyünü, Ələt Beynəlxalq Ticarət Limanının fəaliyyətə başladığını xüsusi olaraq qeyd etmişdir.

2018-ci ili dərin islahatlar dövrü kimi xarakterizə edən dövlətimizin başçısı əsas iqtisadi göstəricilərdən danışarkən demişdir ki, ötən il ümumi daxili məhsulun artımı 1,4 faiz olmuş, o cümlədən qeyri-neft sektoru 1,8, sənaye istehsalı 1,5, kənd təsərrüfatı isə 4,6 faiz artmış, 118 min daimi iş yeri yaradılmışdır.

İnfilyasiyanın cəmi 2,3 faiz olduğunu, əhalinin pul gəlirlərinin isə 9,2 faiz artdığını və infilyasiyanı üstələdiyini qeyd edən cənab İlham Əliyev manatın məzənnəsinin sabit qaldığını bildirmişdir.

Dövlətimizin başçısının iclasdakı giriş nitqində ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulduğu, bunun 11 milyard manatdan çoxunun qeyri-neft sektorunun payına düşdüyü qeyd olunmuş, valyuta ehtiyatlarımızın isə 3 milyard dollar artaraq 45 milyard dollara çatdığı vurğulanmışdır.

Xarici borcların 22,8 faizdən 19 faizə düşdüyünü və ümumi daxili məhsulun 19 faizini təşkil etdiyini deyən cənab Prezident valyuta ehtiyatlarımızın xarici borcumuzu 4-5 dəfə üstələdiyini, ixracın 36 faiz artaraq 19 milyard dollara çatdığını, xarici ticarət balansında müsbət saldonun - yəni, ixracın idxalı üstələməsinin 8,6 milyard dollar təşkil etdiyini nəzərə çatdırmışdır.

**Hörmətli toplantı iştirakçıları!**

2018-ci il bütün ölkədə olduğu kimi, Qəbələ rayonunun da ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaddaqalan olmuşdur.

Lakin ən önəmli siyasi hadisə aprelin 11-də müstəqil Azərbaycanın müasir tarixində keçirilən Prezident seçkiləri olmuşdur.

Yüksək demokratik şəraitdə keçirilən seçkilərdə müdrik xalqımız Heydər Əliyev siyasi kursuna, inkişafa, tərəqqiyə, sabitliyə, ölkəmizin firavan gələcəyinə səs vermiş, bütün uğurlarımızın səbəbkarı, xalqın sevimli oğlu möhtərəm cənab İlham Əliyev seçicilərin 86,2 faizinin dəstəyi ilə növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

**Hörmətli toplantı iştirakçıları!**

Ötən il Qəbələ rayonunda iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 246.101,0 min manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilə nisbətən ümumi məhsul buraxılışı rayon üzrə 25.177,0 min manat, yaxud 11,3 faiz artmışdır. 2017-ci ilə nisbətən ümumi məhsul buraxılışı sənayedə 27.841,0 min manat, yaxud 82,6 faiz, kənd təsərrüfatında 2.294,0 min manat, yaxud 3,3 faiz, nəqliyyatda 187,0 min manat, yaxud 4,9 faiz, rabitədə 81,0 min manat, yaxud 7,4 faiz, ticarətdə 5.307,0 min manat, yaxud 16,5 faiz artmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 2307 manat təşkil etmişdir.

İl ərzində sənaye müəssisələrində çalışan 1.397 nəfər işçinin orta aylıq nominal əmək haqqı 336 manat olmuşdur.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 74.095,0 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 70.692,0 min manat təşkil etmişdir.

2003-cü ilin oktyabr ayından 1 yanvar 2019-cu ilədək 16.843-ü daimi olmaqla, 18.642 yeni iş yeri açılmışdır. İl ərzində açılmış yeni iş yerlərinin sayı 1.936 olmuşdur ki, həmin iş yerlərinin hamısı daimi iş yeridir.

Rayon məşğulluq mərkəzində işaxtaran kimi qeydiyyatdan keçmiş 1530 nəfərdən 541 nəferi münasib işlə təmin edilmişdir.

İl ərzində rayon üzrə mənzil istismar və kommunal müəssisələr kombinatında 60 nəfər, Qəbələ Təmir Tikinti Şirkəti MMC-də 55 nəfər, Qəbələ Yaşıllaşdırma MMC-də 150 nəfər müvafiq işlə təmin olunmuşdur.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli 1941 nömrəli Sərəncamının icrası ilə əlaqədar işlər davam etdirilmişdir. İl ərzində öz bizneslərinə başlamaları üçün tələb olunan aktivlərlə təmin olunmuş 16 nəfər vətəndaşın istifadəsində olan aktivlər onların mülkiyyətinə verilmişdir. Həmin vətəndaşların 8 nəfəri ətlik-heyvandarlıqla, 4 nəfəri südlük-heyvandarlıqla, 1 nəfəri arıçılıqla, 1 nəfəri kiçik qəlyanaltı sahəsində, 1 nəfəri kompüter təmiri, çap və poliqrafiya sahəsində, 1 nəfəri isə avtomobillərin təmiri sahəsində fəaliyyət göstərir.

Özünüməşğulluq proqramının növbəti mərhələsində iştirak etmək üçün müraciət etmiş vətəndaşlardan 269 nəfərinin müraciəti araşdırılmış, onların 233 nəfərinin sosial vəziyyətinə, həyətyanı sahəsinə və biznes ideyasını reallaşdırması üçün malik olduğu digər resurslara baxış keçirilmişdir. Müraciəti araşdırılmış vətəndaşların 110 nəfəri "Öz biznesinə başla və təkmilləşdir" təlimlərinə cəlb edilmiş, 105 nəfər təlimləri uğurla başa vurmuşdur. Onların 93 nəfəri hazırladıqları "Biznes plan"larını komissiyada uğurla müdafiə etmişdir. Biznes planları müsbət qiymətləndirilmiş vətəndaşlardan 86 nəfəri kənd təsərrüfatı, 2 nəfəri istehsal, 5 nəfəri xidmət sahəsində fəaliyyət göstərəcəkdir. Vətəndaşlardan 54 nəfərə iribuynuzlu, 24 nəfərə ümumilikdə 504 baş xırdabuynuzlu malqara, 3 nəfərə ümumilikdə 45 arı ailəsi və 2 nəfərə gözəllik salonu üçün avadanlıqlar verilmişdir.

"Ərazi Məşulluq Proqramı"na uyğun olaraq 16 may 2018-ci il tarixdə aktiv məşğulluq tədbiri olan "Əmək Yarmarkası" keçirilmişdir. Yarmarkada 210 boş iş yeri təqdim olunmuş və 34 müəssisə və təşkilat, 360 nəfər işaxtaran vətəndaş iştirak etmişdir. Yarmarkada 75 nəfərə münasib işlərə göndəriş verilmiş, onlardan 65 nəfər işlə təmin olunmuşdur.

Hesabat dövründə işaxtaran vətəndaşların 12 nəfəri 2 aylıq kompüter mütəxəssisi üzrə peşə kursuna, 4 nəfər bir aylıq ictimai işlərə cəlb edilmiş, 11 nəfər sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaş işlə təmin olunmuş, 7 nəfərə işsizlikdən sığorta ödənişi verilmişdir.

2018-ci ilin yekunlarına görə rayonun yerli gəlirləri 14.930,0 min manat proqnoza qarşı 21.494,8 min manat (144,0 faiz)

(Ardı 5-ci səhifədə).